*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 3 sentyabr 2016-cı il № 68 (2083) Qiyməti 25 qəpik


# Ordumuz qələbə əzmindədir

*Bu ilin aprel döyüşlərində qısa zaman kəsiyində işğalçıları süpürüb geri oturdan oğullar sübut etdilər ki, Azərbaycan əsgəri Vətən uğrunda döyüşməyə, qəhrəmanlıq göstərməyə daim hazırdır.*



Yadıma Azərbaycanın Milli Qəhrəmanı Arif Qubadovun görüşlərimizin birində söylədiyi fikirlər düşdü. Atəşkəsdən sonrakı ilk illər idi. Ordumuzun bölmələrilə ilk təlimlər keçirilirdi. Qəhrəman da öz tabeliyindəki döyüşçülərlə poliqonda məşğələ keçirdi. Ondan soruşdum ki, bu əsgərlər düşməni torpaqlarımızdan çıxarmağa hazırdırlarmı?

Mayor Arif Qubadov onda Azərbaycan əsgəri haqqında demişdi:

- Dünyada Azərbaycan əsgərindən istiqanlı, cəsur, fədakar əsgər tanımıram. Bu əsgəri yaxşı öyrətsən, ona layiq olduğu dəyəri versən, heç bir qüvvə onun qarşısında duruş gətirə bilməz.

Təbii ki, o zaman Milli Qəhrəmanımızla razılaşmış, II Dünya müharibəsi illərində komandirini qorumaq üçün sinəsini düşmən gülləsinin qabağına verən Azərbaycan oğlu Qafur Məmmədovu xatırlamışdım.

Tarixin müxtəlif mərhələlərində babalarımız at belində igidliklər göstərmiş, torpaqlarımıza tamah salan dövlətlərin ordularını diz çökdürmüş, imperiyalar qurmuşlar.

Vətənimiz Çar imperiyası tərkibində olduğu dövrlərdə vətənpərvərliyi, döyüşkənliyi, mübarizliyi, fədakarlığı millətimizin canından çıxarmaq üçün soydaşlarımızı hərbi xidmətdən kənar saxlayırdılar. Ancaq babalarımız demişkən, su gələn arxa bir də gələr.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra dövlətçiliyimizin mühüm dayağı olan Silahlı Qüvvələrimiz yaradıldı. İlk illər uğursuzluğa düçar olsaq da, torpaqlarımızın bir qismini itirsək də, ulu öndərimiz Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra həyatımızın bütün sahələrində olduğu kimi, ordu quruculuğunda da böyük dönüş yarandı.

Ümummilli liderimizin layiqli davamçısı Azərbaycan Prezidenti İlham Əliyev siyasi hakimiyyətinin ilk günlərindən Silahlı Qüvvələrimizin möhkəmləndirilməsini prioritet vəzifə elan etdi. Ordumuzun ən müasir silah və texnika ilə təmin edilməsi, döyüş hazırlığının yüksəldilməsi, sosial-məişət problemlərinin həll edilməsi üçün dövlət qayğısını əsirgəmədi. Ona görə Azərbaycsan Ordusunun qazandığı nailiyyətlər bütün dünyada hərbi mütəxəssis və ekspertlərin diqqətindən yayınmadı. Qüdrətinə görə Silahlı Qüvvələrimiz 50 ən güclü ordu sırasına aid edildi.

Aprel hadisələri göstərdi ki, mütəxəssis dəyərləndirmələri, ekspert rəyləri təsadüfi deyil, ciddi arqumentlərə söykənən həqiqətdir. Ən başlıcası isə, Azərbaycan əsgəri döyüş meydanında sübut etdi ki, havadarlarının böyük dəstəyilə torpaqlarımızı işğal etmiş Ermənistan ordusunu yurdumuzdan qovub çıxarmağa qadirdir. Əsgərlərimiz yaralansalar belə, döyüş meydanını tərk etmək istəmədi, silahdaşlarının gücünə güc qataraq torpaqlarımızı işğaldan azad etmək əzmilə vuruşdular. Həmin günlərdə döyüş tapşırığı rəşadət və fədakarlıqla yerinə yetirildi...

Hərbi hissələrimizə ezamiyyətə gedəndə hər dəfə nümunəvi əsgər və çavuşlarımızla görüşür, onların yüksək hazırlığından xəbər tuturuq. Yeni damlalardan umman yarandığı kimi, döyüşçülərimizin hər birinin nümunəvi xidmətindən, hazırlıq və bacarığından ordumuz güc alır. Bu qüdrət tarixi ədaləti bərpa edəcək, zəbt edilmiş Vətən torpaqlarını özümüzə qaytaracaq!

**"Azərbaycan Ordusu"**



Silahlı Qüvvələrdə "Milli-mənəvi dəyərlərə hörmət, dini radikalizmə nifrət!" layihəsinə start verilib

3-cü səhifədə



Ana harayı

4-cü səhifədə



"Vətən oğulların çiyinləri üstündə yüksəlir"

5-ci səhifədə



"Ürəyi kitab kimi oxumağı bacarmaq lazımdır"

6-cı səhifədə

*Müdafiə Nazirliyi və Lerik Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə uzunömürlülər diyarı Lerikdə aprel döyüşlərinin iştirakçıları olan bir qrup hərbi qulluqçu ilə rayon ictimaiyyətinin görüşü olub.*

# Aprel döyüşlərinin iştirakçıları uzunömürlülər diyarı Lerikdə olublar



Gəncə Qarnizonu Zabitlər Evinin "Vətən uğrunda" səyyar təşviqat maşını vasitəsilə səsləndirilən hərbi-vətənpərvərlik mahnı və marşlarının sədaları altında Heydər Əliyev Meydanına daxil olan qalib döyüşçüləri rayon rəhbərliyi hərarətlə qarşılayıb, milli geyimli qızlar və oğlanlar onlara qəhrəmanlıq rəmzi olan dəfnə yarpaqlarından hörülmüş çələnglər, gül-çiçəklər təqdim ediblər.

Od-alovdan çıxmış barıt qoxulu igidlər xalqımızın ümummilli lideri Heydər Əliyevə bir daha hörmət və ehtiramlarını bildirərək Ulu Öndərin abidəsini ziyarət edib, qarşısına gül dəstələri qoyublar.

Müdafiə Nazirliyinin zabiti, polkovnik Abdulla Qurbani hərbi qulluqçuları tədbir iştirakçılarına təqdim edib, onların aprel döyüşlərində göstərdikləri şəxsi rəşadət və şücaətlərindən söhbət açıb.



Böyük qələbəlik əsgərləri hərarətlə alqışlayıb.

Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov qonaqları salamlayaraq, hər bir leriklinin bu görüşdən qürur duyduğunu bildirib. O deyib ki, aprel döyüşlərində Azərbaycan əsgərinin qələbəsi bütün xalqımız kimi, leriklilərin də böyük sevincinə səbəb olub. Cəbhədən gələn hər qələbə sorağı onları da ruhlandırıb. Həmin günlər bütün rayon əhalisi ayaq üstə idi və Ali Baş Komandanın əmrini gözləyirdi.

İcra hakimiyyətinin başçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprel döyüşləri barədə dediyi fikirləri xatırladaraq vurğulayıb ki, həqiqətən həmin döyüşlər dövlətimizin və ordumuzun gücünü, xalqımızın həmrəyliyini və vətənpərvərliyini nümayiş etdirdi.

Qeyd olunub ki, Qarabağ məsafə etibarı ilə Lerikdən çox uzaqdadır. Lakin, Qarabağda atılan hər güllənin səsi hər bir leriklinin də evində, qəlbində eşidilir. Çünki Heydər Əliyev ideyalarına, Vətəninə, xalqına, dövlətinə, öz Prezidentinə həmişə sadiq olan uzunömürlülər diyarının sakinləri də müstəqil dövlətimizin qayğıları ilə yaşayır və Qarabağ probleminin tezliklə həllini səbirsizliklə gözləyirlər.

Azərbaycanın ərazi bütövlüyü uğrunda təkcə Lerik rayonu 140-a yaxın şəhid verib. Onlardan Valeh Müslümov, Fərhad Ağayev, Fəxrəddin Şahbazov, Əsgər Əliyev və Rövşən Abdullayev Azərbaycanın Milli Qəhrəmanı fəxri adına layiq görülüblər.

Diqqətə çatdırılıb ki, aprel döyüşlərinin igidləri sıralarında da bu diyardan pərvazlanan oğullar da yetərincədir. Hazırda Silahlı Qüvvələrdə yüzlərlə lerikli gənc Vətən qarşısında əsgəri borcunu şərəflə yerinə yetirir.

Polkovnik Abdulla Qurbani Azərbaycan Prezidentinin şəhid ailələrinə, müharibə əlil və iştirakçılarına daim diqqət, qayğı göstərdiyini, bu işin bu gün də prioritet olduğunu bildirib.

Aprel döyüşləri iştirakçılarından polkovnik-leytenantlar Elşən Qarayev, Eldəniz Sadıqov, Vüqar Mirzəliyev, kapitan Hikmət Məmmədov, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularından Rövşən Rəhimov, Vüqar Abbasov, Emin Qasımlı və başqaları cəbhə xatirələrini danışıb, onlara göstərilən diqqət və qayğıdan məmnun olduqlarını bildiriblər.



Sonra qazilərin övladları şeirlər söyləyib, ailə üzvləri bu xeyirxah vətənpərvərlik təşəbbüsünə görə tədbirin təşkilatçılarına minnətdarlıq ediblər.



Tədbir iştirakçıları adından çıxış edən Bəhruz İbrahimov bu kimi tədbirlərin xüsusilə gənclərin hərbi-vətənpərvərlik tərbiyəsində müstəsna əhəmiyyət kəsb etdiyini, gənclərin orduya hazırlanmasında, hərbi peşələrə həvəsləndirilməsində və döyüşən oğullarımızın qəhrəmanlıq nümunələri əsasında yetişməsində mühüm önəm daşıdığını qeyd edib.

Mərasimdə Lerik Rayon Mədəniyyət və Turizm Şöbəsinin bədii özfəaliyyət kollektivi rəngarəng konsert proqramı ilə çıxış edib, aprel döyüşü qəhrəmanlarına hədiyyələr verilib, səyyar laboratoriyada təcili çap olunan fotolar tədbir iştirakçılarında maraq oyadıb.

Tədbirin sonunda Lerikin istirahət mərkəzlərindən birində aprel döyüşlərinin iştirakçıları və onların ailə üzvlərinə ziyafət verilib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Silahlı Qüvvələrdə “Açıq qapı” günü keçiriləcək

*Ənənəyə uyğun olaraq Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, Qurban bayramı ərəfəsində sentyabrın 11-də saat 11.00-da hərbi hissələrdə "Açıq qapı" günü təşkil olunacaq.*

Həmin gün ziyarətçilər, ictimaiyyət, kütləvi informasiya vasitələrinin nümayəndələri hərbi hissələrdə yaradılan yaşayış və məişət şəraiti ilə yaxından tanış olmaq, xidməti, inzibati binalara, eləcə də əsgər yataqxanaları və yeməkxanalarına baş çəkmək imkanı əldə edəcəklər.

Müxtəlif hərbi hissələrdə Silahlı Qüvvələrin bütün rəhbər heyətinin iştirakı ilə keçiriləcək "Açıq qapı" günündə əsgər valideynləri və yaxınları ilə görüşlər təşkil olunacaq, onları maraqlandıran məsələlərin müzakirəsi aparılacaq, konsert proqramları və digər mədəni-kütləvi tədbirlər keçiriləcəkdir.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***1 sentyabr 2016-cı il.***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 17 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Voskevan kəndində yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım kəndində, Berd rayonunun Ayqepar, Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli, Koxanəbi kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz kəndləri yaxınlığında yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

***2 sentyabr 2016-cı il.***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində iri çaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 8 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Barekamavan, Berdavan, İcevan rayonunun Vazaşen kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Qaymaqlı, Kəmərli kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Goranboy və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.



# Hərbi Dəniz Qüvvələrində növbəti buraxılış mərasimi keçirilib

*Avqustun 31-də Hərbi Dəniz Qüvvələrində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının növbəti buraxılış mərasimi keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, mərasimin açılışında Azərbaycan Respublikasının Dövlət himni səsləndirildikdən sonra ümummilli lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Buraxılış mərasimində Hərbi Dəniz Qüvvələri komandanının vəzifələrini icra edən 1-ci dərəcəli kapitan Hicran Rüstəmzadə kursantları təbrik edib və onlara gələcək xidmətlərində uğurlar arzulayıb.

# Silahlı Qüvvələrdə "Milli-mənəvi dəyərlərə hörmət, dini radikalizmə nifrət!" layihəsinə start verilib

*Silahlı Qüvvələrdə "Milli-mənəvi dəyərlərə hörmət, dini radikalizmə nifrət!" devizi altında silsilə tədbirlər aylığına start verilib.*

*Şəmkirdəki "N" saylı hərbi hissədə keçirilən ilk tədbirin iştirakçıları əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin qərargahın qarşısında ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstələri qoyublar. Heydər Əliyev Mərkəzində Ulu Öndərin mənalı ömür yolu və xalqa həsr olunmuş möhtəşəm xidmətlərini əks etdirən ekspozisiya qonaqlarda xoş təəssürat oyadıb.*





Tədbir iştirakçıları Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin xətti ilə nəşr olunan kitabların sərgisinə maraqla baxıblar.

Əsgər klubunda Silahlı Qüvvələrdə silsilə tədbirlər aylığının açılışına həsr edilən mərasimdə Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olanların xatirəsi hörmət və ehtiramla anılıb, Dövlət himni səsləndirilib.

Müdafiə Nazirliyinin zabiti, polkovnik Abdulla Qurbani çıxış edərək keçiriləcək tədbirlər haqqında ətraflı məlumat verib. Bildirilib ki, Müdafiə Nazirliyinin rəhbərliyi Silahlı Qüvvələrin şəxsi heyətinin milli-mənəvi dəyərlər əsasında tərbiyəsinə xüsusi önəm verir və bu istiqamətdə məqsədyönlü iş aparılır. Hər bir komandir, şəxsi heyətlə iş üzrə zabit yaxşı bilir ki, xalqımızın əsrlər boyu yaratdığı və qoruduğu milli-mənəvi dəyərləri mənimsəmədən, ona yaxından bələd olmadan əsl vətəndaş, əsl döyüşçü yetişmək mümkün deyil. Dünya ölkələrinin və xalqlarının tarixini, mədəniyyətini, adət-ənənələrini bilmək yaxşıdır. Ancaq mənsub olduğun xalqın soykökünə, milli-mənəvi dəyərlərinə biganə yanaşdınsa, bu, əsl fəlakətdir. Çünki bu dəyərlər hər bir azərbaycanlının, Azərbaycan vətəndaşının milli kimliyidir.



Qeyd olunub ki, uzun illərdən sonra xalqımıza qələbə sevinci yaşadan Azərbaycan əsgərinin aprel döyüşlərindəki zəfərinin əsas amillərindən biri də şəxsi heyətin döyüş ruhunun, vətənpərvərlik hissinin, hərbi qulluqçuların mənəvi-psixoloji hazırlığının yüksək səviyyədə olması idi. Bu isə Silahlı Qüvvələrdə tərbiyə işində milli-mənəvi dəyərlərə geniş yer verilməsinin nəticəsidir.

Dini radikalizm bu gün bəşər üçün ən böyük təhlükə mənbəyidir və separatizmə, terrorizmə aparan faciəvi yolun başlanğıcıdır. Heç bir ölkə və xalq dini radikalizmdən sığortalanmayıb. Odur ki, dini radikalizmə qarşı mübarizədə hər bir şəxs, eləcə də hərbi qulluqçular daim ayıq-sayıq olmalı, təsirlərə düşməməli və bu yolun həm özləri, həm ailələri, həm də vətəndaşı olduqları dövlət üçün təhlükəli olduğunu dərk etməlidirlər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bu istiqamətdə Silahlı Qüvvələrdə aparılan işin təqdirəlayiq olduğunu bildirib, Müdafiə Nazirliyi ilə rəhbərlik etdiyi qurumun birgə planına əsasən keçirilən tədbirlərin əhəmiyyətini qeyd edib.

Mübariz Qurbanlı bu günlərdə uğurla başa çatan "Milli-mənəvi dəyərlərimizi yad təsirlərdən qoruyaq!" tolerantlıq və multikulturalizm həftəsi çərçivəsində keçirilən tədbirlərdə minlərlə hərbi qulluqçunun, ilahiyyatçının, Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndələrinin, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin əməkdaşlarının iştirakını, hətta cəbhə bölgələrində, ön səngərlərdə tədbirlərin təşkilini müsbət hal kimi qiymətləndirib.

Komitə sədri dünyanın bir çox ölkələrində iqtisadi, siyasi, hərbi böhran yaşandığına baxmayaraq, Azərbaycanda sabitlik və əmin-amanlığı, əhalinin sosial həyat tərzinin gündən-günə yaxşılaşmasını, ordu quruculuğunun sürətlə inkişafını, xalqların dostluq və qardaşlıq şəraitində yaşamasını, din və söz azadlığını ölkə rəhbərliyinin apardığı məqsədyönlü siyasətin nəticəsi kimi nəzərə çatdırıb. O, əmin olduğunu bildirib ki, Müdafiə Nazirliyinin yeni layihəsi də öz müsbət bəhrəsini verəcək, şəxsi heyətin milli-mənəvi dəyərlərə hörmət, dini radikalizmə nifrət ruhunda tərbiyə edilməsində mühüm əhəmiyyət kəsb edəcəkdir.



Tədbirdə Şəmkir Rayon İcra Hakimiyyəti başçısının müavini Fəxrəddin Vəliyev, Müdafiə Nazirliyinin əməkdaşları Rövşən Qarayev, Vüsal Hüseynov, dövlət qulluqçusu İlqar Orucov, Gəncə Şah Abbas məscidi dini icmasının sədri Hacı Əlisəftər, Şəmkir şəhər Cümə məscidi dini icmasının sədri Hacı Natiq və başqaları çıxış edərək, mövzu ilə bağlı fikirlərini bildiriblər.

Hərbi hissə komandirinin müavini polkovnik Nemət Babayev qonaqları salamlayıb və şəxsi heyətin milli-mənəvi dəyərlər əsasında tərbiyə olunmasında Müdafiə Nazirliyi rəhbərliyinin və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin xidmətlərini xüsusi vurğulayıb. Bu kimi tədbirlərin Silahlı Qüvvələrin şəxsi heyətinin qarşıya qoyulmuş tapşırıqların yerinə yetirilməsində müstəsna rolunu qeyd edib və dünyanı narahat edən bir çox dini cərəyanların Azərbaycan Ordusuna sirayət etmədiyini, lakin dini radikalizmə qarşı mübarizə tədbirlərinin də yüksək səviyyədə təşkil olunduğunu nəzərə çatdırıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sifarişi ilə hazırlanmış "Fitnə" sənədli filminə kütləvi baxış olub və tamaşaçılar film haqqında fikir və təkliflərini bildiriblər.

Tədbirin sonunda qonaqlar əsgəri xidmət üçün yaradılan şəraitlə tanış olub, əsgər və zabitlərlə görüşüb, hərbi hissədən xoş təəssüratla ayrılıblar.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Ana harayı



*Qəbula bir nəfər qara geyimli qadın gəlmişdi. Yazıq bir görkəmi vardı. Üz-gözündən kədər, nisgil yağırdı. Çox həyəcanlı idi. Yer göstərdim, oturdu. Nə məqsədlə gəldiyini soruşmağa çətinlik çəksəm də soruşdum. Baxışları uzaqlara zilləndi. Nəsə demək, danışmaq istəsə də bacarmadı. Qəhər boğdu onu.*

*- Anacan, yəqin şəhid anasısan, Allah rəhmət eləsin. Daha özünü üzmək nə lazım, Vətən uğrunda şəhid olub, ən ali zirvəyə ucalıb, - deyə anaya toxtaqlıq vermək istədim.*

*- Ay qardaş, şəhid anası olsaydım, nə dərdim. Kaş oğlum şəhid olaydı. Mən də el içində başımı uca tutaydım, fəxr eləyəydim ki, oğlum öz Vətəni uğrunda, ana-bacısının namusu-qeyrəti uğrunda həlak olub. Deməyə də dilim gəlmir, intihar edib, özünə qəsd eləyib, qardaş. Bir var şərəfli ölüm, bir də şərəfsiz. Oğlum şərəfsiz ölümüylə məni rüsvayi-cahan elədi. Min əzab-əziyyətlə böyütmüşdüm onu. Elə böyük arzularım var idi ki... Axırı da belə...*

*Ananın gözləri doldu. Yaylığını çıxarıb gözlərinin yaşını sildi. Köks ötürərək, - od-ocaqsız yandırdı bizi. Anasına, xəstə atasına, bacısına heç yazığı da gəlmədi, - dedi.*

*- Əlac nədir ki, ay ana, bu da bir alın yazısı imiş, - deyə ananın könlünü almaq istədim. Lakin o, qəzəbli halda, - yox, qardaş, yox! Belə alın yazısı olmaz!*

*Oğlumun ölümündə hər kəs günahkardır. Mən də, atası da, əsgər yoldaşları da, elə komandirləri də. Heç kim yaxasını kənara çəkməsin. Gəlmişəm mənə kömək edəsiniz. Az-çox savadım da var, müəlliməyəm. Dünyanın gedişatından da başım çıxır. Bir məktub yazmışam. Xahiş edirəm bu məktubu oğlumun əsgər yoldaşlarına, komandirlərinə çatdırasınız, onsuz da mənə olan olub. İstəmirəm bundan sonra bir əsgərin də burnu qanasın. Hamısı qoy sağ-salamat xidmətlərini başa vurub evlərinə dönsünlər. Heç bir ananın sinəsinə mənim kimi dağ çəkilməsini istəməzdim. Bir də ki, bu gün-sabah məktəblər açılır. Müəllimlərin, şagirdlərin qarşısına nə üzlə çıxacağımı bilmirəm. Həmişə vətənpərvərlikdən danışan mən indi lal olmuşam, diriykən ölmüşəm, qardaş, - deyib ana əl çantasından çıxardığı məktubu masanın üstünə qoydu.*

*Həmin məktubu çətinliklə oxudum. Bu, məktub deyil, intihar etmiş bir əsgərin anasının ah-fəryadı, harayıdı. Anaya söz verdim ki, həmin məktubun surətini çoxaldıb, tezliklə hər bir səngərə, hər bir əsgərə çatdıracağam.*

*Ayrılanda ana xahiş elədi ki, məktubda nə oğlunun, nə də özünün adı göstərilməsin. Onsuz da bu faciədən sonra el içinə çıxa bilmirik.*

*Ananın xahişini nəzərə alaraq, məktub-müraciəti olduğu kimi təqdim edirik.*

**Polkovnik Abdulla QURBANİ**
***Prezidentin fərdi təqaüdçüsü,***
***Əməkdar İncəsənət Xadimi***

Əsgər balalarım, hər vaxtınız xeyir olsun! Vətənə şərəfli xidmətinizdə hər birinizə uğurlar diləyir və əsgəri borcunuzu vicdanla başa vurub sağ-salamat evinizə qayıtmağınızı arzulayıram.

Sizə nümunəvi əsgər anası, şəhid anası, ən azı davada qolunu, qıçını itirmiş müharibə əlilinin anası kimi müraciət etsəydim daha yaxşı olardı. Ancaq neynim ki, gülləsini düşmənə qarşı yox, özünə tuşlamış bir nakam oğulun anası kimi sizə üz tuturam.

Əsgərliyə yola saldığım gün elə sevinirdim ki. Sanki dünya mənimkiydi. Oğlum əsgər gedirdi. Qohum-qonşu göz aydınlığına gəlmişdi. Hamı şadlıq içindəydi. Heç xəyalımıza da gəlməzdi ki, on aydan sonra...

Gənc əsgərlərin andiçmə mərasiminə də getmişdim. Fəxr edirdim ki, artıq mənim də oğlum Vətən müdafiəçilərinin sırasındadır. Xidmət şəraiti, yemək-içməkləri, yatacaqları çox gözəl idi. Komandirlərindən də razılıq edirdi. On ay əsgər oğlumun haqqında yaxşıdan başqa özgə söz eşitmədim. Hər şey məzuniyyətdən hərbi hissəyə qayıtdıqdan sonra baş verdi. Bir gün eşitdik ki, gətirirlər. Gəlir demədilər. Məlum oldu ki, gecə döyüş növbəsində olarkən avtomat silahıyla atəş açaraq özünə qəsd edib. Cibindən yazdığı bir məktub da çıxmışdı. Sevdiyi qıza ünvanladığı məktubda onun başqa bir oğlana nişanlandığından təəssüfləndiyini bildirir və ölümündə heç kimi günahlandırmırdı.

Oğlumun ölümü nə qədər ağır idisə, dəfni ondan da betər yandırdı bizi. Hətta yaxın qohumumuz olan kənd mollası, "intihar Allaha qarşı üsyandır", deyib ona cənazə namazı qılmaqdan belə imtina elədi. Tabutu üzərinə bayraq sərmədilər, şəhidlərin dəfnində olduğu kimi əsgərlər fəxri qarovulda durmadılar, yaylım atəşi açılmadı, dəfnə qohum-qardaşdan savayı gələnlər də olmadı. Ancaq kəndimizə bir şəhid gətirmişdilər. Bizim ailə kimi tanınan ailə də deyildi. Ancaq Bakıdan, qonşu rayonlardan o qədər adam axışıb gəlmişdi ki, gəl görəsən.İndi də o böyük izdihamı unuda bilmirəm. Oğlum ucuz ölümüylə olub-qalan ailə nüfuzumuza da ləkə gətirdi.

Mən başa düşürəm, özünə qəsd edənin ailəsinin taleyi elə beləcə də olmalı imiş. Bilmirəm, bu dərdi özümlə gora necə aparacağam.

Əsgər oğullarım, inciməyin məndən, qəlbinizi qırmaq istəmirəm, ancaq oğlumun ölümündə sizin də günahınız az deyil. Niyə onu başa düşmədiniz? Son günlər sizdən ayrı gəzəndə, özünə qapananda, kefsiz görünəndə, davranışında qeyri-adi hərəkətlərə yol verəndə, gecə yuxuda sayaqlayanda niyə onunla bir maraqlanmadınız? Niyə onunla bir söhbət etmədiniz, dərdini öyrənmədiniz? Axı o, sizdən çox razılıq edirdi. Əsgərlikdə özümə neçə-neçə yaxın dostlar tapmışam deyirdi. Bu idimi sizin dostluğunuz, yoldaşlığınız?! Bəlkə də oğlum ürəyini sizə açsaydı, dərdini danışsaydı, bir az yüngülləşər, ölüm fikrindən daşınardı. Onun tənhalığa çəkilib, hamıdan təcrid olunduğunun səbəbini niyə axtarmadınız, ən azı komandirə bu barədə niyə dərhal məlumat vermədiniz? Qorxdunuz ki, adınıza ad qoşarlar?

Yox, əzizlərim, siz oğlumu bu niyyətindən çəkindirə bilərdiniz.

Ay oğlumun komandirləri, bəs siz hara baxırdınız? On ay xidmətdə fərqlənən, sizlərdən dəfələrlə təşəkkür, fəxri fərman alan oğlumun son günlərdəki hərəkətlərinə niyə biganə qaldınız? Bu ağır anlarda niyə ona mənəvi dayaq olmadınız, bir tərəfə çəkib ata-bala kimi, böyük qardaş kimi niyə dərdləşmədiniz? Bəlkə də vaxtında onun qəlbini oxusaydınız, könlünü alsaydınız, düz yol göstərsəydiniz, bu faciə də başımıza gəlməzdi.

Bilirəm, indi həm siz, həm də onun əsgər yoldaşları vicdan əzabı çəkirsiniz. Haçansa belə bir kəlam oxumuşdum: "Kibrit soyuqdur, ancaq ona təsir etməklə istilik almaq olar". Oğluma da təsir edə bilərdiniz.

Xahiş edirəm, yalvarıram sizə, heç olmasa bundan sonra bir-birinizin taleyinə biganə qalmayın. Bir-birinizi başa düşün, bir-birinizlə dost olun, qardaş olun, sirdaş olun. Ailədə də söz-söhbət olar. Bir-birinizə güzəştə getməyi bacarın, yerli-yersiz zarafat eləməyin.

Çətin zamandır, hər evin, hər ailənin bir problemi var. Ancaq bu gün hər birinizi yalnız Qarabağ problemi düşündürməlidir. Bu problemin həllində ən böyük məsuliyyət sizin üzərinizə düşür, ay oğlumun silah yoldaşları. Əgər bir-birinizə qardaş olmasanız, ayıq-sayıq olmasanız döyüş zamanı sizə çox çətin olacaqdır.

Heç bir əsgər anasının mənim günümə düşməsini istəmirəm. Siz də çalışın ki, ana-bacınızı mənim günümə qoymayasınız. Özünə qəsd etmək istəyəni yolundan döndərmək olar. Ən azı laqeydlik, biganəlik olmasa. Bir dəfə televizordan eşitdim ki, təsadüf nəticəsində və yaxud kiminsə müdaxiləsi ilə intihardan xilas olmuş şəxs ömrünün sonuna kimi bu şərəfsiz ölümə can atdığından xəcalət çəkir və el içinə çıxa bilmir. Bütün bunlar dəhşətdir.

Əsgər balalarım, sizin valideynlərinizə də demək istəyirəm ki, mənim günümə düşməmək üçün əsgərlikdə olan övladlarını yalnız xoş xəbərlərlə sevindirsinlər. Yoxsa, evdə, ailədə baş verən hər hansı bır xoşagəlməz hadisəni əsgər oğula göndərməklə heç nə qazanmayacaqlar. Sevgi, məhəbbət məsələsinə gəldikdə isə, oğullarım, bu gün sizin bir sevginiz olmalıdır. Vətən sevgisi, torpaq sevgisi... Qalan şeyləri isə ordudan sonraya saxlayın. Vətən sevgisi, torpaq sevgisi olmayacaqsa, ana-bacı sevgisi, hər hansı bir qıza eşq-məhəbbət də faydasızdır.

Di sağ olun, bağışlayın ki, xidmət vaxtınızı çox aldım. Ancaq əziz balalarım, ürəyimi sizə açdığım üçün bir az rahatlandım.

Allah sizləri qorusun! Qalib əsgər kimi sağ-salamat qayıdaraq valideynlərinizi sevindirəcəyinizə böyük ümidlər bəsləyirəm.





*Ön xətdən reportaj*

# "Vətən oğulların çiyinləri üstündə yüksəlir"

*Son illər müasir silah və texnikalarla təmin edilən Silahlı Qüvvələrimiz regionun ən güclü ordusuna çevrilib. Ordunun döyüş qabiliyyəti bilavasitə əsgərin döyüş hazırlığından asılıdır. Müasir silahlardan yüksək səviyyədə istifadə etməyi bacaran əsgərlərə malik ordu ən güclü ordudur. Müdafiə naziri general polkovnik Zakir Həsənovun "Ən müasir silahı da istifadə edən əsgərdir" sözləri hər bir əsgərə etimad deməkdir. Hərbi xidmətə gələn gənclər bu sözləri özlərinə deviz bilərək, bacarıqlı, vətənpərvər döyüşçü kimi yetişirlər.*

Ordu sıralarında hərbi vəzifələrinin öhdəsindən bacarıqla gələn əsgərlər xidmət edirlər. Hərbi formanı geyib, Azərbaycan əsgəri adını daşımaqla qürur duyurlar. Ürəklərində sonsuz Vətən sevgisi ilə xidmət edirlər. Hər bir əsgərin amalı torpaqlarımızı işğaldan azad etməkdir. Bunun üçün onlar xidmətə məsuliyyətlə yanaşır, komandirlərinin tapşırıqlarını dəqiq yerinə yetirirlər. Xidmətləri ilə sübut edirlər ki, Azərbaycan əsgəri vətənpərvər, qorxmaz, cəsurdur. Vətən uğrunda döyüşə atılmağa hər an hazırdır.

Hərbi hissələrə ezamiyyətimiz zamanı belə vətənpərvər əsgərləri yaxından tanıyırıq. İstənilən bölgəmizdə, müxtəlif şəraitdə uğurlu xidmət etdiklərinin şahidi oluruq. Onlarla söhbət zamanı hər biri vurğulayır ki, biz Vətən keşikçiləriyik, çətinlik bilmədən üzərimizə düşən müqəddəs vəzifəni layiqincə yerinə yetirməyə çalışırıq.

"N" hərbi hissəsinin döyüş postlarındayıq. Bu bölgə uca dağlar diyarı kimi tanınır. Ərazini dağların zirvələrində yenilməz Azərbaycan əsgəri qoruyur. Bu oğulların nümunəvi xidmətindən onların komandiri danışır. Əsgərlərinin xidmətə gəldikləri gündən məsuliyyətli, nizam-intizamlı olmalarından fəxrlə söz açır: "Buranın sərt və uzun qışı var. Qış fəslini 6 aydan çox yaşayırıq. Hava şəraitinin ağır olmasına baxmayaraq hər bir əsgər döyüş postlarında ayıqsayıq dayanır. Əsgərlərin hər biri nümunəvi xidmətlərinə görə seçilir. Bir komandir olaraq onların düşməndən qat-qat güclü olduqlarına əminəm. Bu cür mənəvi keyfiyyətlərə malik, vətənpərvər oğullar böyütdükləri üçün onların hər birinin valideynlərinə dərin minnətdarlığımı bildirirəm" - deyir baş leytenant Cavidan Əsədov.

Döyüş postunda əsgərlərlə söhbət edirəm. İlk həmsöhbətim hərbi xidmətə Xaçmaz rayonundan çağırılan Rəhim Qardaşovdur. O, manqa komandiridir.

- 14 aydır ki, hərbi xidmətdəyəm. Xidmət zamanı peşəkar komandirlərimiz tərəfindən bacarıqlı döyüşçü kimi yetişirik. Onların diqqəti və qayğısı xidmətimizi uğurla davam etdirməyə zəmin yaradır. Manqa komandiri kimi üzərimə düşən vəzifələrin öhdəsindən layiqincə gəlməyə çalışıram, əsgərlərə şəxsi nümunə olmağın məsuliyyətini daim hiss edirəm. Torpaqlarımızın hər qarışı üçün döyüşməyə, canımızı əsirgəməməyə hazırıq.



Manqa komandirinin bu sözləri deməsi məni həyəcanlandırır. Əmin oluram ki, belə əsgərləri olan ordumuzun qarşısında düşmən bir gün də tab gətirə bilməz.

Ceyhun İsmayılov hərbi xidmətə Kürdəmir rayonundan çağırılıb. Atıcı vəzifəsində olan Ceyhun 5 aydır ki, hərbi xidmətdədir.

- İlk dəfə döyüş növbətçiliyinə çıxanda çox həyəcanlı idim. Bu həyəcan iki səbəbdən yaranmışdı. Birinci səbəb öhdəmə düşən vəzifənin məsuliyyətini yaxşı dərk etməyimdən, ikinci səbəb isə sevinc, qürur hissindən yaranmışdı. Çünki döyüş postunda xidmət etməyi arzu edirdim və arzuma çataraq səngərdə, əlim tətikdə düşmən qarşısında dayanmışdım. Bu məsuliyyətli vəzifənin öhdəsindən uğurla gəlirəm. Qarşıma bir məqsəd qoymuşam ki, nümunəvi xidmətimlə həm Azərbaycan Ordusuna layiqli əsgər olacam, həm də ailəmin yanına alnıaçıq qayıdacam.

Əsgər Faiq Məmmədov hərbi xidmətə Zaqatala rayonundan çağırılıb.

- Əlbəttə düşmənlə üz-üzə xidmət etmək şərəflidir, - deyir Faiq. - Bizə döyüş postu əmanət edilir. Bu vəzifənin öhdəsindən gəlmək üçün əlimizdən gələni əsirgəmirik. Düşmən atəşkəsi tez-tez pozur. Biz düşməndən qətiyyən qorxmur, komandirlərimizin tapşırığı ilə qarşı tərəfi cavab atəşi ilə susdurur, düşmənə layiqli cavab veririk. Hər an Ali Baş Komandanın əmrinə hazırıq.

Xidmətə Xaçmaz rayonundan çağırılan əsgər Elxan Məmmədov 8 aydır ordu sıralarında xidmət edir. "Hərbi xidmətim dövründə döyüş yolu keçirəm. Vətəni qorumağa qadir olan döyüşçü kimi yetişirəm. Qəhrəmanların döyüş yolunu özümüzə örnək bilirik. Onların bizə əmanət qoyub getdiyi bu torpaqları göz bəbəyi kimi qoruyuruq. Ürəyimiz bir arzu ilə döyünür: Vətənimizin ərazi bütövlüyünü təmin etmək."

Əsgər Məhərrəm Məcidli də nümunəvi xidməti ilə seçilir. Vətənpərvərliyi, qorxmazlığı ilə komandirlərinin və silahdaşlarının rəğbətini qazanıb. Atıcı əsgər xidmətə Sabirabad rayonundan çağırılıb. Xidmətinin 6-cı ayında olan əsgər söhbətində deyir:



- Hərbi andiçmə günü ordu həyatımda ən yaddaqalan günlərimdən biridir. Əsgər yoldaşlarımla çiyin-çiyinə Vətənə sədaqət andı içdik. Hərbi andı qəbul etdikdən sonra məni təbrik edən valideynlərimə söz verdim ki, Azərbaycan Ordusunun adına layiq xidmət edəcək, bacarıqlı döyüşçü olacağam. Xidmətimi uğurla davam etdirirəm. Peşəkar komandirlərimin diqqəti və qayğısı sayəsində xidmət edir, döyüşçü kimi yetişirəm. Bizim gücümüz düşməndən qat-qat çoxdur. Bunu aprel döyüşlərindəki qələbəmizlə bir daha sübut etdik. Əlimiz tətikdə düşmənə hər an nəzarət edirik. Hər hansı bir təxribata əl atarlarsa, onları məhv etməyə daim hazırıq.

... "Vətən oğulların çiyinləri üstündə yüksəlir" deyiblər. Belə vətənpərvər əsgərlərlə söhbətləşdikcə bu kəlamın qüdrətini daha dərindən başa düşürəm. Bir daha əmin oluram ki, Vətənimiz etibarlı əllərdədir.

**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu",**
**fotolar müəllifindir**

*Ermənistanın hakimiyyəti və xüsusilə də qonşu dövlətin ordusu diaspordan toplanan sədəqə hesabına dolanır.*

## Ehtiyatda olan general-leytenant Çingiz Məmmədov:

# Ermənistan ordusu yalnız sədəqə hesabına dolanır

Bu fikri Ermənistan parlamentinin müxalif "Erməni milli konqresi" fraksiyasından olan deputatı Nikol Paşinyanın Dağlıq Qarabağdakı separatçı rejimə maddi yardım üçün toplanmış maliyyə vəsaitinin xərclənməsinin yoxlanılması məqsədilə Azərbaycanın işğal olunmuş ərazilərinə səfərini şərh edən ehtiyatda olan general-leytenant Çingiz Məmmədov bildirib.

Çingiz Məmmədov deyib ki, Ermənistan hakimiyyətinə yaxınlığı ilə seçilən əldəqayırma müxalifətçi liderin aprel hadisələri barədə səsləndirdiyi uydurma və yalan fikirlər ölkədə mövcud olan real gərginliyin fonunda reytinqi kəskin surətdə aşağı düşən və dayaqları laxlayan hərbi-kriminal rejimin nüfuzunu bərpa etmək məqsədini daşıyır.

Populist çıxışları ilə seçilən N.Paşinyan da öz reytinqini qaldırmaq üçün Ermənistan ordusunda və işğal olunmuş ərazilərimizdə yerləşən hərbi bölmələrdəki özbaşınalıqları qəsdən görmədən növbəti dəfə "erməni qəhrəmanlığından" dəm vurur.

Döyüşlər zamanı guya hansısa "dərin kəşfiyyat sistemindən" istifadə etməklə erməni topçularının cəbhənin dərinliyində Azərbaycanın 3 tankını və 200 hərbçisini məhv etməsi barədə separatçıların ona ermənisayağı söylədikləri fikirləri N.Paşinyanın ictimailəşdirməsi onun hərb sənətindən bixəbər olmasına gözəl nümunədir. Aprel hadisələri bir daha göstərdi ki, müasir vasitələrə malik artilleriyaçılarımız ən minimal miqdarda hərbi sursat istifadə etməklə ermənilərin əhəmiyyətli hərbi obyektlərini sıradan çıxardılar. Düşmənin komanda məntəqəsinə, onun hərəkətdə və sığınacaqlarda olan onlarla döyüş texnikasına endirilən zərbələri ermənilər inkar etməsinlər deyə bu faktlar vidoçəkilişlər vasitəsilə ictimaiyyətə təqdim olundu.

Azərbaycan tərəfi ermənilərdən fərqli olaraq döyüş əməliyyatları zamanı itkiləri barədə məlumatları heç vaxt ictimaiyyətdən gizlətməyib. Hətta minaya düşərək sıradan çıxmış 1 ədəd tank barədə də məlumat verilib. Biz həmişə həlak olanlara ehtiramla, döyüşlərdə yaralanan hərbçilərə isə diqqət və qayğı ilə yanaşmışıq.

N.Paşinyan unutsa da, fakt ondan ibarətdir ki, aprel döyüşlərində erməni tərəfinin itkiləri bizimkindən on qat artıq olub. Bu barədə internet saytlarında və sosial şəbəkələrdə yetərincə məlumatlar və videogörüntülər mövcuddur. Əgər erməni ordusu bu qədər qabaqcıl texnologiyalar, müasir kəşfiyyat və rabitə vasitələrinə, müasir silahlara malik olsaydı, dördgünlük döyüşlərdə 30-a yaxın tank və zirehli hərbi texnika, 300 nəfər ölü və 700 nəfərədək yaralı itki verməzdi.

Ermənistanın indiki rejiminin nümayəndələri anlamalıdırlar ki, regiondakı münaqişənin yeganə həlli yolu erməni işğalçı qüvvələrin zəbt olunmuş ərazilərimizdən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasındadır.

**AZƏRTAC**

AZƏRBAYCAN ORDUSU

*Gənc zabitlərimiz*

# "Ürəyi kitab kimi oxumağı bacarmaq lazımdır"



*Gənc zabitlərdən yazmağı, ürəklərinin hökmü ilə taleyini Vətəni qorumağa həsr etmiş insanlarla ünsiyyətdə olmağı çox xoşlayıram. Çətin, lakin şərəfli peşə sahibləri olan hərbçilərimizi oxucularımıza təqdim etməklə bir daha onların dəyərli ömür yolunun cəmiyyətə örnək olduğu qənaətinə gəlirəm.*

*Bir dəfə qocaman müəllimimin oğlunun C.Naxçıvanski adına Hərbi Liseyə ən yüksək balla qəbul olunduğunu eşidəndə o qədər fərəhləndim ki. Sonralar onun taleyi ilə maraqlananda öyrəndim ki, ali hərbi təhsil ocağını da əla qiymətlərlə başa vurub və hazırda mühüm döyüş təyinatlı hərbi hissələrimizdən birində taqım komandiri vəzifəsində xidmət edir. Özümə söz vermişəm ki, onun haqqında da məqalə yazacam.*

Bu yazımın qəhrəmanını yüksək mövqelərimizdən birində yerləşən hərbi bölmədə tanıdım: Kapitan Ramin Məlikov. Hərbçi peşəsinə olan güclü həvəs lənkəranlı yeniyetməni 2002-ci ildə C. Naxçıvanski adına Hərbi Liseyə gətirib. Buranı bitirdikdən sonra hərbi təhsilini ulu öndərimizin adını daşıyan ali hərbi təhsil müəssisəsində davam etdirib. Təhsil aldığı illərdə həmişə öyrənməyə, hərbi biliklərini artırmağa səy göstərib. Silahlı Qüvvələrimizin baş hərbi təhsil müəssisəsində təcrübəli zabit və müəllimlərdən çox vərdişlər öyrənib, ən əsası isə zabit peşəsinin həm olduqca şərəfli, həm də məsuliyyətli olduğuna inanıb.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev gənc nəslə müraciətində qeyd edirdi ki, gənclik dövründən səmərəli istifadə edin, yaxşı təhsil alın, özünüzü həyata yaxşı hazırlayın. "Gənclik illəri sonra ələ düşməyən illərdir. Yaş artdıqca, insan bu illəri həmişə həvəslə xatırlayır. Hər bir yaşlı insan öz gəncliyini daim məhəbbətlə xatırlayır və eyni zamanda gəncliyi dövründə itirdiyi günlərə, səmərəsiz keçmiş günlərə görə özünü daim qınayır, heyfslənir...".

Xalqa, Vətənə, dövlətçiliyə olan sevgi, milli-mənəvi dəyərlərimizə bağlılıq Raminin müqəddəs zabit peşəsini seçməsində əsas amillərdən olub.

- Ramin, zabit diplomunu aldığın günü necə xatırlayırsan?

- O gün həyatımın, gənclik illərimin ən əlamətdar tarixidir,- deyən müsahibim bir anlıq şirin xəyallara dalıb 2009-cu ilin qızmar yay günündən danışır. Və onu yenidən xoş xəyallarına qovuşdurduğuma görə minnətdarlığını bildirir. - Çox əlamətdar, təntənəli bir gün idi. İllər boyu minbir əziyyətimə qatlaşan valideynlərimin önündə yüksək rütbəli zabit mənə diplom təqdim edərkən gözlərim dolmuşdu. Sevincimin həddi-hüdudu yox idi...

Doğrudan da adamı ucaldan, yaşadan arzulardır. Bəzən yaşı 70-i haqlayan ahıl bir adamdan səhhətini, əhvalını soruşanda ürəyində közərən nə qədər arzusunu sadalayır. "Sonbeşik nəvəmin də toyunu görəydim", "Qız nəticəmin şirin-şəkər əllərindən tutub birinci sinifə aparaydım" və s. Beləcə, hər kəs ömrünün son məqamına kimi neçə arzu ilə yaşayır. Bəlkə də arzular olmasaydı, yaşamağın da heç bir dəyəri olmazdı.

Ramin deyir ki, ilk təyinatla cəbhə bölgəsinə göndəriləndə bir anlıq özüm-özümə sual verdim: Görəsən bu etimadı doğrulda biləcəmmi? Elə bu sual onu ilk gündən məsuliyyətli, tələbkar olmağa sövq edib. "Tabeliyində olan əsgərləri Vətənimizi qorumaq üçün layiqli döyüşçülər kimi hazırlamaq ən başlıca məqsədin olmalıdır". Bu sözləri ona kursant olduğu illərdə hərbi hissələrdən birində təcrübədə olarkən döyüş yolu keçmiş yüksək rütbəli zabit demişdi. Həmin zabit yaralı olduğu vaxt bir əsgərinin çiynində xilas olunduğunu danışanda Ramin qeyri-ixtiyari kövrəlib. "Gərək biləsən ki, bizim əsgərlərimiz nə qədər cəsur, istiqanlı, vətənpərvərdilər".

> *"Öz əsgərinə güvəncin, inamın olmasa, sən döyüşə ürəklə atıla bilməzsən."*

İndi o günlər çox arxada qalıb, artıq Ramin Məlikov zabit karyerasında bir pillə də yüksəlib, özünü qısa vaxtda bacarıqlı kadr kimi təsdiqləyə bildiyi üçün ona yüksək vəzifə etibar edilib. Bu etimad isə gənc zabitin məsuliyyət hissini qat-qat artırıb. "Orta məktəbi yaxşı qiymətlərlə oxuyurdum. Bir gün sevimli müəllimlərimdən biri gələcəkdə hansı sənətin sahibi olacağımı soruşdu. "Mən Azərbaycan zabiti olacam!" dedim. Saçlarıma sığal çəkib, "Doğru yoldasan, oğlum, bu gün Vətənimizə zabit oğullar daha gərəklidir", sevincək dilləndi. İndi bu yüksəkliklərdə yurdumuzun keşiyində dayanan oğulların komandiri olduğum üçün özümü xoşbəxt sanıram və illər öncə müəllimimin dediyi sözləri düşünürəm.

- Ramin, elə əsgərlərin olubmu ki, tərxis olunanda onlardan ayrılığın acısını duymusan?

- Əlbəttə, belə əsgərlərim çox olub. Kamal Şatanov Şirvan şəhərindən hərbi xidmətə gəlmişdi. Hazırlıqlı, qürurlu, cəsarətli əsgər idi. Söz vermişdi ki, təyinatı hərbə bağlayacaq. Elə də oldu, keçən il Gizirlər Məktəbini bitirib, indi cəbhə bölgəsində xidmətini davam etdirir. 2013-cü ildə Masallıdan bacarıqlı bir əsgərim də vardı - Sənan Məmmədli. Onu ürəkli, qorxmaz əsgər kimi xatırlayıram. Bu əsgərlərlə sıx dostluğum var, arzum hər birinin toyunda iştirak etməkdir. Belə əsgərləri böyüdən ata-ananın qarşısında baş əyirəm.

Bölmə komandirinə görə, əsgərin ürəyinə yol tapmaq, onun ürəyini bir kitab kimi oxuyub öyrənmək lazımdır. "Əgər öz əsgərinə güvəncin, inamın olmasa, sən döyüşə ürəklə atıla bilməzsən. Təsadüfi deyilmir ki, ordunun gücü onun əsgərindədir".

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu"**

# Şəhid kimyaçıların xatirəsi əbədiləşdirilib

*Avqustun 31-də "Azərikimya" İstehsalat Birliyi tərəfindən şəhid kimyaçıların xatirəsinə ucaldılmış abidə kompleksinin açılış mərasimi keçirilib.*

AZƏRTAC xəbər verir ki, Etilen-polietilen zavodunun qarşısındakı meydançada torpaqlarımızın müdafiəsi uğrundakı döyüşlərdə qəhrəmancasına şəhid olmuş 54 kimyaçının şərəfinə ucaldılmış xatirə kompleksinin açılışında şəhidlərin ailə üzvləri, şəhər ictimaiyyətinin nümayəndələri, Milli Məclisinin deputatları Muxtar Babayev, Tahir Mirkişili və Mirzəcan Xəlilov iştirak ediblər.

Tədbiri Birliyin Həmkarlar İttifaqı Komitəsinin sədri Vaqif Ömərov açaraq, mərasimin Qubadlının işğalı gününə təsadüf etdiyini vurğulayıb və torpaqlarımızın müdafiəsi uğrunda canlarını fəda etmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Sonra şəhid atası, vaxtilə kimya sənayesində çalışmış Valeh Axundov və Etilen-polietilen zavodunun direktoru Oktay Niftəliyev tərəfindən Azərbaycanın Dövlət bayrağı qaldırılıb, şəhərin 11 saylı tam orta məktəbi şagirdlərinin ifasında himnimiz səsləndirilib.

Tədbirdə Qarabağ Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin sədri Tərlan Hacızadə, Sumqayıt Tarixi Muzeyinin direktoru Olya İslamova çıxış edərək ordu quruculuğu istiqamətində həyata keçirilən işlərdən, Azərbaycan əsgərinin yüksək döyüş ruhundan söhbət açıblar.

Şəhid ailələri adından Pərvanə Babaşova çıxış edərək onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə dərin minnətdarlığını bildirib.

Sonra xatirə kompleksinin önünə əklillər qoyulub, tər qərənfillər düzülüb və şəhidlərin ruhuna dualar oxunub.

# "Beynəlxalq hüququn normalarına riayət olunmalıdır"

*ATƏT məkanında təhlükəsizlik məsələsi həll olunmamış silahlı münaqişələr, davam edən hərbi təcavüz, terrorizmin artan təzyiqi, zorakı ekstremizm, separatizm, kiberhücumlar, radikalizm və digər hədələrlə sarsılıb. Etnik və dini zəmində dözümsüzlük və ayrı-seçkilik, xüsusilə islamofobiya kimi artan meyillər də ciddi çağırışlardır. Hazırkı beynəlxalq təhlükəsizlik problemlərinin əksəriyyəti beynəlxalq hüququn qəsdən pozulması və təhrif olunması səbəbindən baş verir.*

Bu sözləri Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ATƏT üzv dövlətlərinin xarici işlər nazirlərinin qeyri-rəsmi toplantısındakı çıxışında bildirib.

Nazir deyib: "Bəzən düşünürlər ki, qısamüddətli siyasi məqsədlərə nail olmaq üçün beynəlxalq hüququn norma və prinsiplərinə məhəl qoymamaq olar. Bəziləri hətta gücdən istifadə etməklə dövlətlərin ərazi bütövlüyünün əleyhinə onları fəal şəkildə pozur.

Acı şəkildə etiraf etməliyəm ki, ATƏT məkanında bu, ilk olaraq qonşu Ermənistan tərəfindən mənim ölkəmə qarşı başladılıb. Ermənistan Beynəlxalq hüquq və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini tam şəkildə pozaraq, 20 ildən çoxdur ki, Azərbaycan torpaqlarını işğal edib və zəbt etdiyi bu ərazilərdə bədnam etnik təmizləmə aparıb.

Ermənistanın xarici işlər naziri burada çox ziddiyyətli danışdı. Burada hər kəs Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin reallıqlarını qəbul edir və yaxşı bilir ki, kimdir təcavüzkar. Kim Azərbaycan torpaqlarını işğal edib. Kim ölkəmə qarşı güc tətbiq edir. Kim beynəlxalq və humanitar hüququ pozub.

Azərbaycanda bir milyondan artıq qaçqın və məcburi köçkün vardır. Artıq bəsdir. Danışıqlar masasında irəliləyişə nail olmaq və Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasının zamanı yetişib.

Beynəlxalq səviyyədə tanınmış sərhədlərə hörmət bütün dünya düzəni və beynəlxalq ictimaiyyət üçün mütləqdir. Bu xüsusda, dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədlərinin güc tətbiqi ilə dəyişdirilməsinə yönəlik cəhdlərin qəbuledilməzliyi təmin olunmalıdır.

Biz mənfi proseslərdən yan qaçmaq və onların qarşısını almaq üçün Helsinki Yekun Aktının əsas prinsiplərinə, eləcə də ATƏT-in digər sənəd və qərarları da daxil olmaqla beynəlxalq hüququn normalarına qəti riayət olunmasını təmin etməliyik".

**AZƏRTAC**

*Redaksiyanın poçtundan*

# Vətənin keşiyində duran əsgərə



*Düşmənlə təmas xəttində döyüş növbəsi aparan döyüşçülərimizlə görüşə getmişdik. Ön xətdən reportaj hazırlamalı idim. Əsgərlərimizin maraqla nəsə oxuduqlarının və gülümsədiklərinin şahidi oldum. Hiss edilirdi ki, bu, döyüşçülərimizin ürəyindən idi. Məlum oldu ki, orta məktəb şagirdləri Azərbaycan əsgərlərinə məktublar göndəriblər. Füzuli rayonunun məktəbliləri cəsur Vətən oğullarına xoş sözlər ünvanlamışdılar. Onlardan birini diqqətinizə çatdırırıq. Əslində, digər məktublar kimi bu da hər bir döyüşçüyə ünvanlanıb.*

Salam, əziz Azərbaycan əsgəri!

Siz istidə də, soyuqda da səngərlərdə dayanır, Vətənimizin keşiyini çəkir, məkrli düşmənin təxribatlarının qarşısını cəsarətlə alırsınız. Məhz sizin sayənizdə xalqımız rahat yaşayır, sabaha ümidlə baxır.

Mənfur ermənilər sizin dayandığınız mövqeləri atəşə tuturlar. Amma qorxmaz Azərbaycan oğulları onların cavabını layiqincə verirlər. Buna görə çox sağ olun. Unutmayın ki, siz Vətənimiz Azərbaycana övladlıq borcu verərkən, səngərlərdə döyüş növbəsi çəkərkən bizim qəlbimiz hər an sizinlədir.

Bu məktubu kimin oxuyacağını bilmirəm. Əslində, bunun fərqi də yoxdur. Onu bilirəm ki, sən şanlı Vətən oğullarının davamçısısan. Azərbaycan övladları zaman-zaman müqəddəs torpaqlarımızı yadellilərdən qəhrəmancasına müdafiə ediblər. Bu gün Vətənimizi qorumaq sənin üzərinə düşüb. İnanıram ki, sən bundan qürur hissi keçirir, hər qarış torpağımızı göz bəbəyi kimi qoruyursan. Öz cəsurluğunla, mətinliyinlə, dözümlülüyünlə sübut edirsən ki, Azərbaycan əsgəri yenilməzdir.

Təəssüflər olsun ki, Qarabağ müharibəsində torpaqlarımızın bir qismini havadarlarının köməyilə düşmən işğal edib. Mənim də ana yurdum olan Dağlıq Qarabağ bölgəsi bu gün erməni qəsbkarlarının əlindədir. O yerlər barədə mənə valideynlərim danışıb. Şuşa, Laçın, Kəlbəcər, Ağdam gözəlliklər diyarı olub. Bu gün ermənilər o yerləri xarabalığa çeviriblər. Çünki həmin şəhər və kəndlərimiz onların Vətəni deyil. Valideynlərimin də, mənim də, bütün Azərbaycan xalqının da ən böyük arzusu əzəli Vətən torpaqlarına qayıtmaqdır. İnanıram ki, bizi bu diləyimizə çatdıracaqsan.

Əziz qardaşım!

Aprel ayında cəbhədə baş vermiş döyüşlərdə sübut etdiniz ki, ermənilər igid Azərbaycan əsgərinin qarşısında tab gətirə bilməz. Həmin döyüşlərdə irəli atılaraq torpaqlarımızın bir hissəsini düşməndən təmizlədiniz. Biz sizin qəhrəmanlığınızla fəxr edirik.

Başda Ali Baş Komandan İlham Əliyev olmaqla şanlı Azərbaycan ordusuna, əziz əsgər qardaşım, sənə güvənirik. İnanırıq ki, bizi işğal edilmiş torpaqlarımıza sən qovuşduracaqsan!

**Qönçə FƏRZƏLİYEVA,**
**Füzuli rayonu, 35 nömrəli tam orta məktəbin şagirdi**

# Hərbi yeniliklər, ənənələr

## "Buk-M1" zenit-raket kompleksi



Yerüstü qoşunları, tank bölmələrini düşmənin hava hücumundan qorumaq üçün 50-ci illərin sonunda SSRİ-də özüyeriyən "Kub" zenit-raket kompleksinin hazırlanmasına başlanıb və 1967-ci ildə silahlanmaya qəbul edilib. 1972-ci ildə "Kub" zenit-raket kompleksini əvəz etmək üçün yeni, daha keyfiyyətli "Buk" adlı kompleksin hazırlanmasına qərar verilib. Əsas məqsəd zenit raketi ilə silahlanmış buraxıcı qurğudan, hədəfləri aşkaretmə stansiyasından, komanda məntəqəsindən və təchizat sistemindən ibarət möhtəşəm bir kompleksin yaradılması idi. 1977-1979-cu illərdə yeni kompleksin sınağı həyata keçirilib və "Buk-1" adı ilə silahlanmaya qəbul edilib. Kompleksdən müxtəlif hündürlük və uzaqlıqda yerləşən hava hədəflərinə qarşı mübarizə üçün nəzərdə tutulub.

1982-ci ildə daha bir modernləşdirilmiş "Buk-M1" zenit-raket kompleksi silahlanmaya qəbul edilib. Onun bir çox imkanları artırılıb. 90-cı illərdə kompleks üzərində yeni 9M317 raketi quraşdırılıb və bununla "Buk-M1-2" təyinatını alıb, 1998-ci ildə rus ordusunun silahlanmasına qəbul edilib. "Buk-MI-2"-in yeni radiolokasiya sistemi ilə birlikdə hədəfləri işıqlandırmaq və raketləri tuşlamaq üçün xüsusi maşınla da təchizatı planlaşdırılıb. Onun radiolokasiya antenası teloskopik qaldırıcıda yerləşdirilib ki, bu da onu 22 metr hündürlüyə qaldırmağa, müxtəlif hündürlükdə hədəfləri məhv etməyə imkan verəcək. Həmin ildə "Buk-M1-2" yenidən modernləşdirilərək "Buk-M2" təyinatını alıb. Müəyyən səbəblərə görə onun seriyalarla istehsalı baş tutmayıb. 15 ildən sonra "Buk-M2-də təkmilləşdirmə aparıldıqdan sonra 2008-ci ildə qoşunların silahlanmasına daxil edilib. Hazırda onun əfsanəvi "Buk-M3" modeli üzərində işlər aparılır.

Müasir zenit-raket kompleksi təyyarələri, helikopterləri, qanadlı raketləri və pilotsuz uçan aparatları məhv edə, düşmənin kütləvi hücum aviasiyasına qarşı mübarizə apara, qoşunları və hərbi-sənaye obyektlərini qoruya, müxtəlif hava şəraitində vəzifəsini yerinə yetirə bilər. "Buk"ların bir batareyası altı özüyeriyən atəş qurğusundan, üç təchizat maşınından, hədəfləri aşkaretmə stansiyasından və komanda məntəqəsindən ibarətdir. Bir baza kimi bütün komplekslərdə "QM-569" tırtıllı şassidən istifadə edilir. Bu da kompleksin yüksək keçidliyə, manevrliyə və sürətə malik olmasına imkan verir. Bütün komplekslər müstəqil elektrik qüvvəsi ilə təchiz olunur. "Buk" zenit-raket komplekslərinin raketlərin daşınmasını və yüklənməsini, qorunmasını da həyata keçirə bilər. Kompleks qatı yanacaqlı, birpilləli zenit 9M38 raketi ilə silahlanıb. Hava hədəflərini məhv etmək üçün 70 kiloqramlıq döyüş hissəsindən istifadə edilir. Raketin məhvetmə elementləri zərbə dalğası və qəlpələrdir. Uzunluğu 5,5 metr, diametri 60 mm, ümumi çəkisi 685 kiloqram, uçuş sürəti saniyədə 850 metrdir, qatı yanacaqlı mühərriki iki rejimdə işləyir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### Çin dağlarında "ölməz körpü"



Çinin Şendon vilayətinin Tay dağları minilliklər boyu ölkənin dini və mədəni simvolu kimi tanınıb.

Bu Çinin 5 müqəddəs dağlarından biridir və çinlilərdə yaranış və dirçəlişlə assosiasiya olunur.

Dağda həmçinin təbiətin gücü ilə iri qayalardan yaradılmış "ölməz" körpü də var. Onun nə zaman yarandığını heç kim bilmir. Deyilənə görə, körpü daha çox buz dövrünə aiddir.

### İŞİD terror qruplaşması İraqda 11 neft quyusu partladıb



Kayyara bölgəsindəki 11 neft quyusunun İŞİD tərəfindən partladılması nəticəsində şəhərin küçə və prospektlərinə axan neft yanğına səbəb olub. Yanğının çox böyük olduğu və şəhərin hər tərəfinə yayıldığı bildirilir. Yanğının söndürülməsi istiqamətində işlər davam etdirilir.

Yanan neftin ölkə iqtisadiyyatı üçün milyonlarla dollar zərərə səbəb olduğu bildirilir.

### Tövlə ofisə çevrilib



Belçikanın "Studio Farris" arxitektura studiyasının layihəsi əsasında tövlə çoxfunksiyalı ofisə çevrilib.

Burada ofis üçün nəzərdə tutulmuş konfrans zalı, kitabxana və yazı masaları var.

Ofisin daxilində kifayət qədər təbii işıq olsun deyə, divarlarda əlavə pəncərələr açılıb. Bundan əlavə, binanın orijinal fasadı da bərpa olunub.

Bir-birinin üzərinə qoyulmuş taxta bloklar kitab rəflərindən ibarət kitabxana yaratmaqla yanaşı, ofisin yuxarı hissəsinə qalxmaq üçün pilləkən rolunu da oynayır.

### Ukraynada yeni xatirə sikkəsi dövriyyəyə buraxılıb



Ukrayna Milli Bankı sentyabrın 1-dən "Ukraynada pul islahatının 20 illiyi" adlı xatirə sikkələri dövriyyəyə buraxacaq.

Alüminiumlu bürüncdən hazırlanan 1 qrivna nominallı sikkənin çəkisi 6,8 qram, diametri 26,0 millimetrdir. Dövriyyəyə cəmi 60 min sikkə buraxılıb ki, bunun da 50 mini bazara suvenir qablaşdırmada çıxarılacaq.

Yeni sikkələr Ukrayna Milli Bankının satış məntəqələrində 35 qrivnaya satılacaq.

Sikkənin dizaynını rəssamlar Vladimir Demyanenko, Vladimir Taran, Aleksandr Haruk, Sergey Haruk və heykəltəraş Anatoli Demyanenko hazırlayıblar.

### Göldən tapılan parovoz



ABŞ-da dalğıclar gölün dibindən 1910-cu ildə batan parovozun qalıqlarını tapıblar.

Batmış gəmiləri axtaran bir qrup həvəskar 2014-cü ildə gölün dərinliklərindən qatarın vaqonlarını aşkar ediblər. Lokomotiv isə 2016-cı ilin avqustunda tapılıb.

Qeyd edək ki, Kanadadan gələn parovoz relsin üzərinə düşən daşların maneəsi nəticəsində qəzaya uğrayıb və ABŞ-la sərhəd olan gölə düşüb. Qəza nəticəsində üç maşinist dünyasını dəyişib.

**AZƏRTAC-ın materialları əsasında**

# Şəxsi heyətlə iş üzrə bölük komandirinin müavini vəzifələrinə qəbul elan edilir

*Aprel hadisələrindən sonra ordunun nüfuzunun artması, vətəndaşlarımızda ruh yüksəkliyi və döyüş əzminin yüksəlməsi Silahlı Qüvvələrdə hərbi xidmət keçmək arzusunda olan insanlardan çoxsaylı müraciətlərin daxil olmasına səbəb olmuşdur.*

Minlərlə müraciəti nəzərə alaraq, Müdafiə Nazirliyi tabeliyindəki hərbi hissələrdə şəxsi heyətlə iş üzrə bölük komandirinin müavini vəzifəsinə qəbul keçirilməsini qərara alıb.

Hərbi xidmətə qəbul olmaq üçün ali təhsil müəssisələrinin humanitar fakültələrini (filologiya, pedaqogika, tarix, coğrafiya, sosiologiya, psixologiya, politologiya, jurnalistika və s.) bitirmiş, müddətli həqiqi hərbi xidmət keçmiş, 28 yaşı tamam olmayan, fiziki cəhətdən sağlam və kişi cinsindən olan Azərbaycan Respublikasının vətəndaşları müraciət edə bilərlər.

Zabit kimi əvvəllər Silahlı Qüvvələrdə xidmət etmiş, humanitar ali təhsilli (28 yaşı tamam olmayan) ehtiyatda olan hərbi qulluqçular da qəbul ilə bağlı müraciət edə bilərlər.

Namizədlər söhbətləşmə və ixtisas seçimindən, sənədlərin toplanıb təqdim olunmasından, Müdafiə Nazirliyinin hərbi həkim komissiyasında yoxlamadan keçdikdən sonra müvafiq kurslara qəbul olunacaqlar. Kursu müvəffəqiyyətlə bitirənlər müvafiq vəzifələrə təyin ediləcəklər.

Bağlaşma (müqavilə) yolu ilə xidmət etmək üçün minimal xidmət müddəti 1 il 6 aydır. Həmin müddətdən sonra Silahlı Qüvvələrdə xidmətini davam etdirmək arzusunda olanlar kadr zabitləri heyətinə keçirilə bilərlər. Xidmət dövründə həmin şəxslər Silahlı Qüvvələrin hərbi qulluqçularına şamil olunan bütün imtiyazlardan istifadə hüququna malik olacaqlar.

Namizədlər 2016-cı il sentyabrın 5-dən oktyabrın 15-dək Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinə müraciət edə bilərlər.

**Təqdim olunan sənədlərin siyahısı:**

- tərcümeyi-hal;
- təhsil haqqında sənədin surəti;
- doğum haqqında şəhadətnamə və şəxsiyyət vəsiqəsinin surəti;
- ehtiyatda olan zabitin şəxsiyyət vəsiqəsi və ya hərbi biletin surəti;
- ASAN xidmətdən məhkumluğun olub-olmaması barədə arayış;
- sağlamlıq (psixonevroloji, narkoloji, vərəm, dəri-zöhrəvi dispanserlərdən qeydiyyatda olub-olmaması) haqqında tibbi arayışlar;
- 2 ədəd 3x4 sm və 2 ədəd 9x12 sm ölçülərində fotoşəkil (başıaçıq, anfas).

**Qeyd:**

**Qəbul zamanı pedaqoji stajı, elmi dərəcəsi və dövlət mükafatı olanlara üstünlük veriləcək.**

**Məhkumluğu olan, əvvəllər hərbi xidmətdə olarkən hərbi qulluqçuların şərəfini ləkələyən, nalayiq hərəkətlər törətdiyinə görə həqiqi hərbi xidmətdən ehtiyata buraxılanların müraciət etməmələri xahiş olunur.**

**Əlaqə üçün telefon nömrələri: (012) 538-85-62, (012) 538-61-31**

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# "Cıdır düzündə "Heyratı" səsləndirəcəm"

Musiqinin dili bəşərin dilidi...

Musiqinin dediklərini milliyətindən asılı olmadan hamı anlayır, dərk edir. Azərbaycan musiqisi dinləyənin ürəyini titrədir, duyumunu tərpədir, düşüncələrini bəşəri ideallara kökləyir. Bu xarakterinə görə onu dinləyənlər bütün çalarları ilə dərk edir...

Gəncliyimdə oxuduğum bir şeiri xatırlayıram:

*Ey təbib, olsaydım*
*yerinə sənin,*
*Musiqi olardı adı*
*nüsxəmin.*
*Birinə yazardım*
*"Sevgili canan",*
*Birinə yazardım*
*"Şəbi-hicran",*
*Birinə yazardım*
*kamanda "Mahur",*
*Birinə yazardım "Zabul",*
*bir də "Şur",...*

Bilmirəm, bunu Hüsniyyə eşidibmişmi, eşitməyibmişmi, musiqiyə meylliydi. Anası Sevda xanımın qızının istəyinə xeyir-dua vermişdi. Bu, onun ilk hədiyyəsi olmuşdu. Elə bir hədiyyə ki, ömrünün axarını müəyyənləşdirmə qüdrətindəydi. O ilk günün həyəcanı bəlkə də uşaqlığının ilk həyəcanıydı. Bu gün eşidəcəyi kəlmələr ürəyinə təpər də ola bilərdi, könül mülkünü tar-mar da edə bilərdi; musiqi səslərini ayırd eləmə qabiliyyəti müəllimi razı salmışdı. Dilli musiqi alətini öyrənməyi məsləhət görmüşdü.

Yarpaq pıçıltısının da, bulaq şırıltısının da, şimşək çaxışının da, yağışın da, küləyin-mehin də səsindəki musiqini duyurdu. Sonralar deyəcəkdi ki, musiqi xalqın ruhundan süzülür, xalq öz musiqisini öz ruhuna, öz xarakterinə uyğun yaradır. Belə qüdrətə malik olan xalqımla nə qədər qürrələnsəm də azdı...



Musiqi məktəbini fərqlənmə ilə bitirib. XI sinif şagirdinin hədsiz sevincinə hədsiz sevinənlərdən biri də mən oldum. Anası Sevda xanımın sevincini təsvir eləməyə söz tapa bilmirəm. Yağışdan sonrakı göy üzünün təmizliyi vardı Hüsniyyənin baxışlarında. O təmiz baxışlarda çırpınan bir istək sezdim. O istək mənə tanış istək idi...

Söhbətləşirdik. Söz sözü çəkdi. "Arzuna çatdın..." - dedim. Ürkəcək bir təbəssüm qondu yanaqlarına. "Yox" - dedi. "Hələ çatmamışam. Arzuma Cıdır düzündə, İsa bulağının qənşərində "Heyratı", "Segah", "Zəminxarə" səsləndirəndə çatacam..."...

Hüsniyyənin müəllimləri - Gülnarə Sultanova da, Səbinə Rəhimova da yetirmələriylə qürurlanmaqda haqlıdırlar.

16 yaşlı musiqiçinin arzusu elə məmləkətimizin arzusudu. Hamımız o günün həsrətindəyik. Həmin gün Cıdır düzündə, İsa bulağında olanlar Vətənə ad olan bir sevginin musiqi yozumunu böyük sevgilərlə dinləyəcək. Hüsniyyə İdrisovanın ifasında səslənən o ecazkarlığa təşnə olanların sırasında mən də varam...

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

## Maraq dünyamız

### Tarixi şəxsiyyətlər haqqında maraqlı məlumatlar

**A.K.Suvorov.** Bu böyük rus sərkərdəsi doğulanda çox zəif və cılız uşaq olub. Lakin özünü müntəzəm surətdə möhkəmləndirməklə orqanizmini tam bərpa etmişdi. Belə ki, Suvorov hətta yetmiş yaşında ikən misilsiz yürüşlərə çıxmış və ordusu ilə birlikdə Alp dağlarını aşmışdı. Ondan başqa Alp dağlarına yalnız Hannibal və Napoleon yürüş etmişdilər.

Suvorov adəti üzrə rəsmi qəbullarda bütün medallarını taxarmış. Onu gözü götürməyən generalların arvadları bir qəbul zamanı marşalla rastlaşıb: "Ah, Aleksandr Vasilyeviç, siz bu qədər zəif adam olduğunuzdan, yəqin ki, bu medallar sizə ağırlıq edir!" - demişlər. Suvorov onlara: "Çox ağırlıq edir, o qədər ağırlıq edir ki, onları qaldırmağa sizin ərlərinizin gücü çatmaz!" - deyə cavab vermişdi.

**Y.Sezar.** O, Roma imperiyasının o vaxtkı əyaləti olan İspaniyada hakim olarkən şəhərdən keçərkən demişdi: "Mən Romada ikinci adam olmaqdansa, burada birinci adam olmağı istərdim."

Məşhur Roma İmperatoru və dövlət xadimi Yuli Sezar Afrika sahillərinə çıxarkən ayağı büdrəmiş və yıxılarkən özünü sındırmayıb, gülünc vəziyyətdən çıxsın deyə: "Ah, Afrika, mən səni qucaqlayıram" - demişdi.

Makedoniyalı İsgəndər kimi məğlubiyyət nə olduğunu bilməyən Sezar, həm də onun kimi, bəlkə daha artıq səxavətli olub. Belə ki, yaxın dostlarından birinin xahişi ilə onun yanına göndərilən bir adama Sezar bütöv bir ölkəni bağışlamışdı.

Yuli Sezar Makedoniyalı İsgəndərdən sonra dünyanın ikinci möcüzəsi sayılır. Təsadüfü deyildir ki, bütün səfər və yürüşlərində onun ayrılmaz "yoldaşlarından" biri də İsgəndərin kiçik mərmər büstü olub.

**Hazırladı:**
**çavuş**
**Rəşad ƏMRAHOV**

# İdman

## Güləşçimiz dünya çempionatının qızıl medalını qazanıb



Fransanın Makon şəhərində güləş üzrə gənclər arasında dünya çempionatı davam edir.

İkinci yarış günündə 55, 66, 84 və 120 kq çəki dərəcələrində yunan-Roma güləşçiləri mübarizə aparıblar. Güləşçilərimiz günü 1 qızıl və 1 bürünc medalla başa vurub.

84 kq çəkidə yarışan İslam Abbasov ardıcıl olaraq Avstriya, İran və Rusiyadan olan rəqiblərini mübarizədən kənarlaşdıraraq finala yüksəlib. Finalda rəqibi Türkiyə təmsilçisi Ali Cengiz olub. Gərgin keçən görüşü qələbə ilə başa vuran İslam Abbasov dünya çempionatının qızıl medalını qazanıb.

## Azərbaycan Dünya Köçəri Oyunlarında iştirak edəcək



Sentyabrın 3-8-də Qırğızıstanın İssık-Kul vilayətində Dünya Köçəri Oyunları keçiriləcək. İlk Dünya Köçəri Oyunları 2014-cü ildə Qırğızıstanda keçirilib. Bu il proqrama 20-dən çox yarış, o cümlədən at çapma, oxatma, ənənəvi intellektual oyunlar, milli ov növləri üzrə yarışlar daxil edilib. Bundan başqa, qonaqlar köçəri mədəniyyəti ilə yaxından tanış ola biləcəklər.

Dünya Köçəri Oyunlarında Azərbaycan, Argentina, Braziliya, Macarıstan, İsrail, İtaliya, Qazaxıstan, Çin, Latviya, Niderland, Pakistan, Rusiya Federasiyası, ABŞ və digər ölkələrdən komandaların iştirakı gözlənilir.

## "Qəbələ" UEFA Avropa Liqasında ilk iki oyunda Teo Uiksdən istifadə edə bilməyəcək



"Qəbələ" futbol komandası UEFA Avropa Liqasının qrup mərhələsinin matçlarından əvvəl ciddi itki ilə üzləşib.

Komandanın aparıcı futbolçularından olan Teo Uiks pley-off mərhələsində "Maribor" ilə cavab oyununda aldığı qırmızı vərəqəyə görə UEFA tərəfindən cəzalandırılıb.

Yarımmüdafiəçi qarşılaşmanın 69-cu dəqiqəsində qırmızı vərəqə almışdı. Həmin vəziyyəti müzakirə edən UEFA-nın İntizam Komitəsi futbolçunun iki oyunluq diskvalifikasiya edilməsini məqsədəuyğun sayıb. Bununla da T.Uiks qrup mərhələsinin ilk iki turunu buraxmalı olacaq. Belə ki, o, sentyabrın 15-də "Anderlext" ilə səfər, həmin ayın 29-da isə "Mayns" ilə ev oyunlarında forma geyə bilməyəcək.

## "Qarabağ" klubu Çexiyanın "Slovan" komandasını "Dalğa Arena"da qəbul edəcək



"Qarabağ" futbol klubu UEFA Avropa Liqasının qrup mərhələsinin ilk turunda "Slovan" komandasını (Liberets, Çexiya) Bakının Mərdəkan qəsəbəsindəki "Dalğa Arena"da qəbul edəcək.

Bu barədə klubun direktoru Əmrah Çəlikəl məlumat verib.

Ə.Çəlikəl stadion seçimi barədə UEFA-nı da məlumatlandıracaqlarını və təsdiq cavabı alacaqları təqdirdə "Slovan" komandasını "Dalğa Arena"da qəbul edəcəklərini bildirib. "Qarabağ" komandasının digər ev oyunlarını Tofiq Bəhramov adına Respublika stadionunda keçirəcəklərini bildirən klub rəsmisi deyib: "Hazırda Respublika stadionunda ot örtüyünün təmirinə başlanılıb. Düşünürəm ki, ikinci oyuna qədər öz stadionumuz hazır vəziyyətə gələcək və oyunlarımızı orada keçirəcəyik".

**AZƏRTAC-ın materialları əsasında**

**Məsul katib**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Rəşid HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 484
Nüsxə 4650